BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Humanitar elmlər seriyası 2015*

**UOT 94 (479.24)**

# AZƏRBAYCAN RESPUBLİKASININ İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI (İƏT) İLƏ MÜNASİBƏTLƏRİ YENİ MƏRHƏLƏDƏ

**A.P.ƏHMƏDOV**
***AMEA İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu***
***agilahv@gmail.com***

*Azərbaycan Respublikası 8 dekabr 1991-ci ildən İƏT-in* tamhüquqlu üzvüdür. Ötən 25 il ərzində münasibətlər dinamik inkişaf etmiş və Azərbaycan İƏT-in fəal üzvlərindən birinə çevrilmişdir. Azərbaycanın İƏT daxili nüfuzunun artmasında milli diplomatiyanın peşəkar siyasi fəaliyyəti müsbət rol oynamışdır. Bununla yanaşı ötən illər ərzində Azərbaycanın müasir beynəlxalq münasibətlərdə nümayiş etdirdiyi aktivlik, İƏT ilə yanaşı digər nüfuzlu beynəlxalq təşkilatlarda uğurla təmsil olunması tədqiq olunan problemə misal göstərilə bilər. Ümumilikdə Azərbaycanın yüksələn xətlə inkişaf edən iqtisadiyyatı, genişlənməkdə olan enerji siyasəti və qeyri neft sektorunun inkişafına göstərdiyi ciddi münasibət Azərbaycan-İƏT münasibətlərinin möhkəmlənməsində mühüm əhəmiyyətə malikdir.*

*Təqdim olunan məqalədə Azərbaycan Respublikasının İƏT ilə əməkdaşlığının son 13 ili tədqiq olunmuşdur. Ötən on üç il ikitərəfli münasibətlərin dinamik inkişafında yeni mərhələ kimi yadda qalmışdır.*

**Açar sözlər:** İslam həmrəyliyi, beynəlxalq təşkilatlar, milli diplomatiya, Yaxın Şərq, enerji siyasəti, ikitərəfli münasibətlər

*"Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz hər hansı bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda respublikamızın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq".*

**Heydər Əliyev**
**Azərbaycan xalqının ümummilli lideri**

**Giriş.** Azərbaycan Respublikasının xarici siyasətinin başlıca prinsipləri 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyasında və ümummilli lider Heydər Əliyevin çıxışlarında öz əksini tapmışdır. Ölkə Konstitusiyasının 10-cu maddəsində Azərbaycanın xarici siyasətinin başlıca prinsipi önə çəkilərək qeyd olunur ki, Azərbaycan başqa dövlətlərlə və xarici aləmlə əlaqələrini beynəlxalq

*QEYD: Təşkilat 25 sentyabr 1969-cu ildən 28 iyun 2011-ci ilə qədər İslam Konfransı Təşkilatı (İKT) adlandırılmışdır. Hazırda təşkilatın rəsmi adı İslam Əməkdaşlıq Təşkilatıdır (İƏT). Bu səbəbdən mətndə İKT yox İƏT ifadəsi yer almış və 2011-ci ilə qədər istinad olunan prezident və digər yüksəksəviyyəli şəxslərin çıxışlarında İKT ifadəsi saxlanmışdır.

hüquq normaları və ölkənin maraqlarını nəzərdə tutan prinsiplər əsasında qurur [5]. Bu səbəbdən Azərbaycan ötən illər ərzində bir sıra regional və beynəlxalq təşkilatlarla səmərəli münasibətlər qura bilmişdir. Belə təşkilatlardan BMT, AŞPA, NATO, İƏT, MDB, GUAM və s. adlarını çəkmək olar. Lakin Azərbaycanın İƏT ilə qurduğu əməkdaşlıq əlaqələri digər beynəlxalq təşkilatlardan daha sıx münasibətlərin yaranması ilə fərqlənir. Azərbaycan-İƏT ikitərəfli münasibətlərində ilk diqqət çəkən məsələ isə islam həmrəyliyinin müasir beynəlxalq münasibətlərdə möhkəmlənməsinə dəstəyin verilməsi ilə bağlıdır. Belə mühüm məqamda Azərbaycan islam dünyasının bir parçası kimi islam həmrəyliyinin möhkəmlənməsində İƏT-in fəal üzvlərindən biri kimi bunu əməli işində də göstərmiş olur.

Qeyd etmək lazımdır ki, İƏT Azərbaycanın müstəqilliyinin ilk illərindən respublikaya maraq göstərmiş və münasibət qurmaqda maraqlı olduğunu dilə gətirmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində və Xocalı qətliamının beynəlxalq miqyasda tanınması istiqamətində İƏT-in göstərdiyi yüksək məram ikitərəfli münasibətlərdə əsas siyasi xətt olaraq qalır. İƏT Ermənistandan işğal etdiyi Azərbaycan ərazilərini boşaltmağı tələb edən və qətnamə qəbul edən ilk və tək beynəlxalq təşkilatdır. Xocalını soyqırımı aktı kimi tanıyan ilk İƏT dövləti isə Pakistan İslam Respublikasıdır. İƏT dövlətlərinin fəaliyyətdə olan Parlament İttifaqı da (Pİ) Ermənistanın işğalçı siyasətini pisləyən qərarlar qəbul etmişdir.

Azərbaycan-İƏT münasibətlərində ikinci mühüm məsələ iqtisadi münasibətlərə göstərilən diqqətdir. İƏT-in ən böyük maliyyə institutu sayılan İslam İnkişaf Bankı (İİB) ilə Azərbaycan hökuməti arasında ikitərəfli sazişlər imzalanır və kredit layihələri həyata keçirilir. Kreditlər əsasən respublikada infrastrukturun yenilənməsi, yolların çəkilməsi və digər sosial yönümlü layihələrin gerçəkləşməsinə dəstək vermiş olur. Bununla yanaşı, İİB üzv ölkələrdə elm və təhsilin stimullaşdırılmasına da dəstək ifadə edərək qrant layihələri və təqaüd proqramları həyata keçirir.

Azərbaycanın İƏT ilə münasibətlərini möhkəmləndirən səbəblərdən biri mədəni əlaqələrin inkişafına maraq göstərilməsi ilə bağlıdır. Azərbaycanın İƏT-in ən böyük Təhsil, Elm və Mədəniyyət Mərkəzi İSESKO ilə qurduğu münasibətlər və İSESKO-nun respublikada keçirilən yüksəksəviyyəli tədbirlərə qatılması əlaqələrin genişlənməsinə müsbət təsir göstərir. İƏT çərçivəsində Azərbaycan-İSESKO münasibətlərinin inkişaf etdirilməsində Heydər Əliyev Fondunun fəaliyyəti də ölkə mədəniyyətinin İƏT dövlətlərində təbliğinə geniş imkan açır. Bu səbəbdən Fondun prezidenti və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın Azərbaycan-İSESKO münasibətlərinin inkişafına göstərdiyi ciddi dəstək əməkdaşlığın inkişafında vacib əhəmiyyət daşıyır. Bununla yanaşı Azərbaycan gəncləri İƏT-in Dialoq və Əməkdaşlıq uğrunda Gənclər Forumu ilə sıx münasibətlər qurmaqda maraqlıdır. İƏT Gənclər Forumunun mədəniyyət məsələləri üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın ikitərəfli əlaqələrin möhkəmlənməsinə göstərdiyi münasibət bu baxımdan təqdirəlayiq

haldır. İkitərəfli əlaqələrin genişlənməsinə göstərilən belə yüksək münasibət isə öz növbəsində Azərbaycan-İƏT mədəni münasibətlərinin möhkəmlənməsində vacib məqamlardandır.

Bütün sadalanan məsələlər Azərbaycan Respublikasının İƏT ilə münasibətlərinin əhatə dairəsinin birtərəfli yox bir neçə istiqamətdə inkişaf etdiyini göstərməkdədir. Bu səbəbdən Azərbaycan-İƏT münasibətləri keyfiyyətçə yeni mərhələdə davam etdirilir və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İƏT və bu təşkilata üzv olan dövlətlərlə münasibətlərin daha da dərinləşməsinə diqqət yetirərək beynəlxalq təşkilatlarda İƏT dövlətlərinin Azərbaycana siyasi və iqtisadi dəstəyinin vacibliyini önə çəkir.

Azərbaycan-İƏT münasibətlərində qeyd olunan vacib məqamlar məqalədə öz əksini tapmış və ikitərəfli münasibətlərin yeni mərhələdə gələcək perspektiv inkişafının əhəmiyyəti göstərilmişdir.

**Azərbaycan-İƏT münasibətləri yaxın tarixdə və yeni mərhələdə: bəzi məqamların təhlili.** Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla münasibətləri uğurla davam etdirilir. Bu baxımdan şəffaf xarici siyasətin mövcud olması həmçinin Azərbaycanın İslam dünyası ilə yaxınlaşmasına, əlaqələrinin möhkəmləndirilməsinə və islam həmrəyliyinin bir nömrəli müdafiəçisi olan İƏT və bu təşkilata üzv olan dövlətlərlə münasibətlərin genişlənməsində əsas təməl olmuşdur.

Hazırda dünyada sosial-iqtisadi inkişafı dəstəkləyən irihəcmli layihələrə imza atılır. Belə layihələrə Azərbaycan Respublikası da maraq göstərir və dövlətin enerji siyasəti Qərb və Avropa miqyasında tanınmaqdadır. Azərbaycanın dünya birliyində yüksək səviyyədə təmsil olunması həmçinin islam dünyasından da keçir. İslam dünyasını bir arada mərkəzləşdirməyə cəhd edən İƏT-in fəaliyyəti bu baxımdan müasir beynəlxalq münasibətlərin inkişafına müsbət təsir göstərir.

İqtsidai siyasəti yüksək templə inkişaf etməkdə olan İƏT üzvlərindən biri Azərbaycandır və respublikanın bu baxımdan digər təşkilat üzvləri ilə diplomatik və iqtisadi münasibətlər qurması aktual səslənir. Azərbaycan həmçinin İƏT çərçivəsində fəaliyyət göstərən sosial-iqtisadi yönümlü qurumlarla da əməkdaşlığa maraq göstərir.

26 dekabr 2004-cü ildə İİB-nin baş direktoru Əhməd Məhəmməd Əlini qəbul edən Prezident İlham Əliyev Azərbaycanın mötəbər islam bankı ilə münasibətlərinin inkişaf etdirilməsinin vacibliyinə diqqət çəkmişdir [13, 519]. Bu isə yuxarıda qeyd olunduğu kimi Azərbaycan-İƏT iqtisadi münasibətlərinin möhkəmlənməsində əhəmiyyətli əməkdaşlığa yol açmışdır. Ötən illər ərzində İİB-nin Azərbaycanla əməkdaşlığa göstərdiyi maraq daha da artmışdır. Faizsiz islam bankı sayılan İİB hələ müstəqilliyin ilk illərində Azərbaycana maliyyə dəstəyi vermiş və Ermənistanın işğalçı siyasətindən əziyyət çəkən soydaşlarımıza humanitar yardım göstərmişdir.

7 dekabr 2005-ci ildə Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanının Məkkə şəhərində İƏT-ə üzv olan ölkələrin dövlət başçılarının fövqəladə zirvə

toplantısında iştirakı, keçirdiyi yüksək səviyyəli görüşlər və zirvədə geniş nitq söyləməsi Azərbaycan-İƏT münasibətlərinin keyfiyyətcə yeni mərhələsinin başlanğıcı demək idi [1, 43]. Dövlət başçısı İƏT-in müasir beynəlxalq münasibətlərdə oynadığı yüksək rolu belə qeyd etmişdir: "57 dövləti birləşdirən İslam Konfransı Təşkilatı dünyanın nüfuzlu təşkilatlarından biri olaraq, beynəlxalq münasibətlərdə vacib rol oynayır. Təşkilat ona üzv olan dövlətlərin qarşılaşdığı problemlərin həlli prosesində səmərəli fəaliyyət göstərir, digər dövlətlər və beynəlxalq təşkilatlarla qarşılıqlı anlaşmanın bərqərar olmasına öz töhfəsini verir. Yarandığı vaxtdan etibarən İslam Konfransı Təşkilatı müasir dünyanın müxtəlif problemlərinin həllinə güclü təsir göstərir və münaqişələrin aradan qaldırılmasında iştirak edir" [1, 43]. Burada Prezident İlham Əliyevin toxunduğu vacib məqamlardan biri İƏT-in ilk gündən Azərbaycana siyasi və iqtisadi dəstək verməsi və Ermənistanın Cənubi Qafqazda həyata keçirdiyi işğalçı siyasətinin təşkilat tərəfindən birmənalı olaraq pisləndiyini qeyd etməsini göstərmək olar: "...ölkəmiz üçün, eləcə də bölgə üçün ən böyük təhlükə mənbəyi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində İslam Konfransı Təşkilatının və digər ölkələrin dəstəyini yüksək qiymətləndirirəm" [8, 204]. Prezidentin qeyd etdiyi kimi Ermənistanın bu məsələdə nümayiş etdirdiyi qeyri-konstruktiv mövqeyi, bütövlükdə bölgə üçün təhlükə və təhdid ünsürü olaraq qalır ki, nəticədə beynəlxalq təşkilatların bu məsələyə diqqət yetirməsi vacibdir.

Azərbaycan-İƏT münasibətlərində siyasi dəstəklə yanaşı təşkilatın respublikaya sosial-iqtisadi dəstəyi əlaqələrin inkişafına təkan verən vacib amillərdəndir. Bu baxımdan, 23 iyun 2010-cu ildə İİB Qrupunun illik 35-ci toplantısının Azərbaycanda baş tutması və açılış mərasimində Prezident İlham Əliyevin iştirak edərək geniş nitq söyləməsi hər iki tərəfin bir-biri ilə münasibətlərinin daha yüksək səviyyədə inkişaf etməsinə diqqət çəkmişdir. Dövlət başçısı İİB-nın Azərbaycana verdiyi iqtisadi dəstəyi yüksək qiymətləndirərək demişdir: "Əməkdaşlığımızın gözəl perspektivləri vardır. Azərbaycan öz inkişaf dövrünü yaşayır və bankın xətti ilə Azərbaycanda həyata keçirilmiş layihələr özünü doğruldur. Ölkəmizin hərtərəfli inkişafını təmin etmək üçün biz gələcəkdə də iqtisadi islahatlarımızı davam etdirəcəyik. Bir sözlə, mən qeyd etmək istəyirəm ki, İslam İnkişaf Bankı ilə Azərbaycan arasında bu günə qədərki əməkdaşlıq çox uğurlu olmuşdur. Biz bu əməkdaşlıqdan çox məmnunuq və ümid edirik ki, biz gələcəkdə də bu əməkdaşlığın dərinləşməsinə bərabər səylərimizi göstərəcəyik" [13, 520]. Həqiqətən də konfransdan keçən beş il ərzində Azərbaycan-İİB əməkdaşlığı genişlənmiş və layihələrin həcmi də artmışdır. Həmin tədbirdə çıxış edən İİB-nın prezidenti Ə.M.Əli qurum üzvləri arasında Azərbaycanla əməkdaşlığa xüsusi əhəmiyyət verdiklərini və əməkdaşlıq üçün yeni perspektivlərin yarandığını da qeyd etmişdir: "Qurumumuz 1992-ci ildən etibarən Azərbaycan ilə sıx əməkdaşlıq edir. Həmin vaxtdan etibarən, ümumi məbləği 528 milyon ABŞ dolları olan 28 maliyyə əməliyyatı aparılmışdır. Bank Azərbaycan hökuməti ilə razılığa gələrək ümumi məbləği 450 milyon dollar olan 11

layihəni əhatə edən üçillik işçi proqramını qəbul etmişdir. İslam İnkişaf Bankı davamlı inkişafın vacibliyini nəzərə alaraq, Azərbaycana dəstəyini əsirgəməyəcəkdir" [8, 203]. Göründüyü kimi, 1992-2010-cu illərdə Azərbayca-İİB münasibətlərində inkişaf tempi xeyli irəliləmişdir. Növbəti üç il, 2011-2013 illər üçün də 11 layihə həyata keçirilmişdir.

Azərbaycan-İƏT sosial əməkdaşlığı sahəsində də mühüm tədbirə Azərbaycan ev sahibliyi etmişdir. Belə ki, 17 iyun 2014-cü ildə Bakıda İƏT-in əmək, məşğulluq və sosial müdafiə ilə bağlı çərçivə sənədinin icrası üzrə Rəhbər Komitəsinin ilk iclası keçirilmişdir. İki gün davam edən iclasda diqqət çəkən problemlərdən biri son illərin qlobal iqtisadi-maliyyə böhranının İƏT-ə üzv dövlətlərin əmək bazarına təsirsiz ötüşmədiyi, bir sıra dövlətlərdə çoxsaylı iş yerlərinin bağlanmasına səbəb olması ilə əlaqədar olmuşdur. Reallıq budur ki, hazırda dünyanın digər inkişaf etmiş regionları ilə müqayisədə İƏT regionunda ümumi və ayrı-ayrı əhali qrupları üzrə məşğulluq səviyyəsi aşağı olaraq qalır. Məsələn, 2012-ci ildə dünya üzrə gənclərin işsizlik səviyyəsi 12,6 faiz olduğu halda, İƏT ölkələri üzrə orta göstərici 15,6 faiz olmuşdur [6]. Əslində məşğulluqla bağlı problemlər və xüsusilə gənclər arasında işsizliyin yüksək olması bütün dünyada müşahidə olunur. Belə bir məsələnin Azərbaycanda qabardılması respublikanın qlobal məsələlərin həllində maraqlı olduğunu göstərir. Eyni zamanda mövcud sahədə əməkdaşlığın və dialoqun genişlənməsi baxımından həmrəyliyin vacib olduğu əsas problemlərdən biri olaraq qalır.

Ümumilikdə isə, 2003-cü ildən sonrakı dövr Azərbaycanın beynəlxalq təşkilatların işində iştirakında mühüm bir dövr təşkil edir: Azərbaycan beynəlxalq təşkilatlarda bir sıra uğurlar qazanıb. Azərbaycanın İƏT-də qazandığı uğurları ilə yanaşı digər nüfuzlu beynəlxalq qurumlardakı fəaliyyəti də bu baxımdan diqqət çəkir. Növbəti uğurlardan biri yaxın keçmişdə Avropa Şurası Parlament Assambleyasında Prezident İlham Əliyevin parlaq nitqi idi. Bu nitq Azərbaycan diplomatiya tarixinin qürurverici səhifələrindən biridir. Bir başqa hadisə isə ATƏT Parlament Assambleyasının Azərbaycanda keçirilən sessiyasıdır. Bu sessiyada 600-dən yuxarı nümayəndənin iştirakı Azərbaycanın mühüm beynəlxalq mərkəzlərdən birinə çevrildiyini göstərir. Bir zamanlar Azərbaycanda nəinki beynəlxalq, respublika səviyyəsində toplantıları keçirmək çətin olardı. İndi isə ən böyük, nüfuzlu beynəlxalq təşkilatların toplantıları Azərbaycanda keçirilir. Artıq Azərbaycan böyük konfranslara, simpoziumlara ev sahibliyi edir. Bütün bunlar Azərbaycanın dünya siyasətində əhəmiyyətinin və rolunun artdığını göstərən çoxsaylı amillərdən biridir [10]. Göründüyü kimi, Azərbaycan bu mənada dünya birliyinin tamhüquqlu üzvü kimi İƏT, AŞPA və ATƏT kimi tanınmış beynəlxalq qurumlarla münasibətlərinin inkişafına və yenilənməsinə hər il diqqəti artırmaqdadır. Heç şübhəsizki dünya birliyinin böyük hissəsi yenə də İslam dünyasının payına düşür və belə olduğu təqdirdə Azərbaycan-İƏT münasibətləri aktuallığını qoruyub saxlamaqdadır. Azərbaycan Respublikasının İƏT ilə münasibətlərinin yeni mərhələyə keçid alması isə əməkdaşlıq üçün yeni siyasi, iqtisadi və mədəni imkanlar yaratmışdır.

İƏT bütün zirvə toplantılarında Azərbaycan torpaqlarının işğalı məsələsini gündəliyinə salaraq, mühüm əhəmiyyət kəsb edən prinsipial qərarlar qəbul etmişdir. Belə ki, 1994-cü ildə Kasablankada İƏT-in zirvə toplantısında, 1996-cı ildə Cakartada İƏT-in üzvü olan dövlətlərin xarici işlər nazirlərinin 24-cü konfransında, 1997-ci ildə Tehranda və 2000-ci ildə Dohada keçirilən İƏT-in zirvə toplantılarında Ermənistanın Azərbaycana təcavüzü haqqında qətnamələr qəbul edilmişdir [9, 859]. Qeyd olunduğu kimi İƏT beynəlxalq təşkilat olaraq Azərbaycanın haqq işini, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə ciddi dəstəyini davam etdirir və bu məsələdə birmənalı mövqeyini digər beynəlxalq qurumların tribunasından da səsləndirir. Belə məqamda İƏT-BMT münasibətlərinin dinamikasına diqqət yetirilməsi vacibdir. İƏT beynəlxalq təşkilat olaraq həm öz gücündən istifadə edərək, həm də üzv dövlətləri BMT vasitəsilə Azərbaycana siyasi və iqtisadi dəstək verməyə çağırır. Bu, əslində kifayət qədər ciddi dəstəkdir və İƏT dövlətləri paralel olaraq BMT-nin də tamhüquqlu üzvləri kimi Azərbaycana siyasi dəstək ifadə edirlər.

Azərbaycanın İƏT-də qısa müddətdə öncül mövqe tutması qanunauyğunluq kimi qəbul edilir. Ümumiyyətlə, isə İƏT və digər təşkilatlar çərçivəsində nüfuzu gücləndikcə onun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində tutduğu ədalətli mövqeyinə dəstək də artır. Hazırda Azərbaycan Prezidentinin xarici siyasət kursunun ən prioritet məsələsi Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmasıdır ki, hadisələrin axını bu günün tezliklə yetişəcəyindən xəbər verir [11].

Azərbaycan-İƏT münasibətlərinin yeni mərhələsində milli diplomatiya İƏT və BMT kimi nüfuzlu təşkilatlarda yüksək səviyyədə təmsil olunur və hər iki qurumda Azərbaycanın nümayəndəliyi fəaliyyət göstərir. Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov İƏT-in xarici işlər nazirləri şurasında və bu təşkilatın BMT-də baş tutan illik hesabat toplantılarında geniş məruzələrlə çıxış edir. E.Məmmədyarov çıxışlarında Azərbaycanın islam həmrəyliyinə sadiq qaldığını və bu məsələdə İƏT-ə dəstək verməyə hazır olduqlarını bildirir. Bununla yanaşı, xarici işlər naziri Fələstin dövlətinin elan olunması istiqamətində İƏT-in siyasətinə dəstək ifadə edir və bunu həm də BMT-nin yüksək səviyyəli toplantılarında da bəyan edir.

Xüsusilə son 2013-2015-ci illərdə Azərbaycan Respublikasının İƏT ilə münasibətlərində dinamik inkişaf müşahidə olunmuş, Azərbaycan hökuməti və İƏT baş katibliyinin, eləcə də bu qurum çərçivəsində fəaliyyətini davam etdirən İİB və İSESKO kimi ixtisaslaşmış qurumların da dəstəyi ilə Bakıda bir sıra yerli və beynəlxalq əhəmiyyətli tədbirlər keçirilmiş və yüksək səviyyəli görüşlər baş tutmuşdur. Bu baxımdan, Azərbaycan xarici işlər nazirliyinin 2013 və 2014-cü illərin yekununa dair ictimaiyyətə təqdim etdiyi hesabatlarından aydın görmək olar ki, İƏT ilə əməkdaşlıq münasibətlərinin genişləndirilməsi Azərbaycan dövlətinin xarici siyasətində prioritet istiqamətlərdən

biri kimi qalmaqdadır*.

**Nəticə.** Dəyişən və inkişaf edən dünyada istər dövlətlərarası münasibətlər, istərsə də dövlətlərin beynəlxalq təşkilatlarla münasibətlərində əməkdaşlıq meyllərinin genişləndiyi müşahidə olunur. Belə bir məqamda Azərbaycan Respublikası da beynəlxalq hüququn norma və prinsiplərinə riayət edərək və təbii ki, milli maraqları çərçivəsində xarici siyasətinin imperativlərini genişləndirməkdədir. Bu baxımdan, Azərbaycanın İslam dünyası ilə qurduğu münasibətlər Qərb və Avropa ilə yanaşı xüsusi aktuallıq kəsb edir. Çünki Azərbaycan çoxəsrlik tarixində islam sivilizasiyasının inkişafına ciddi əhəmiyyət verən müasir dövlətdir. Azərbaycan xarici siyasət istiqamətini təyin edərkən hüquqi və demokratik prinsiplərdən çıxış edir və milli maraqlarını genişləndirir. Belə olduğu halda, Azrbaycanın İslam dünyasının təmsil olunduğu İƏT kimi mötəbər beynəlxalq təşkilatla əlaqələrinin möhkəmləndirilməsinə yönəlmiş diplomatik fəaliyyəti siyasi, həm də iqtisadi və mədəni baxımdan səmərəli addımların atılması ilə nəticələnir. Nəticədə Azərbaycan İslam dünyasının mənafelərinin bir nömrəli müdafiəçisi olan İƏT-in fəal üzvlərindən biri kimi müasir beynəlxalq münasibətlərdə islam həmrəyliyinə töhfə vermiş olur.

Ötən illər ərzində Azərbaycan İƏT ilə münasibətlərini genişləndirə bilmişdir. Bu əlaqələr 2003-cü ildən yeni mərhələyə keçid almış və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yuxarıda qeyd olunduğu kimi ilk dəfə 2004-cü ildə İİB-nin prezidentini qəbul etməsi, 2005-ci ildə Məkkə zirvə toplantısında iştirakı və söylədiyi geniş nitq, ardınca 2006-cı ildə İƏT xarici işlər nazirləri şurasının 33-cü Bakı toplantısında yaxından iştirakı, 2009-cu ildə Bakının islam mədəniyyətinin paytaxtı elan olunması ilə bağlı keçirilən təntənəli açılış mərasimində iştirakı, həmçinin 2010-cu ildə İİB Qrupunun Bakıda baş tutan 35-ci illik toplantısında nitq söyləməsi ikitərəfli münasibətlərdə yeni mərhələnin təməlini təşkil etmişdir.

Məqalədə Azərbaycanın İƏT ilə müxtəlif sahələri əhatə edən əməkdaşlığının bəzi məqamlarına diqqət yetirilmiş və yaxın tarixdə ikitərəfli münasibətlərin yeni mərhələsinə nəzər salınaraq təhlillər aparılmışdır. Mövzu ilə bağlı sadalanan bütün məqamları nəticə olaraq aşağıda göstərilən şəkildə ümumiləşdirmək olar:

- Müasir beynəlxalq münasibətlərin formalaşmasında yaxından iştirak edən Azərbaycan Respublikası beynəlxalq hüquqa əsaslanaraq və milli maraqları çərçivəsində xarici siyasətini inkişaf etdirməkdədir;
- İƏT çərçivəsində fəaliyyətini davam etdirən İİB, İƏT Pİ, İSESKO və İƏT Gənclər Forumu (GF) kimi təşkilatın ixtisaslaşmış bölmələri Ermənistanın işğalçı siyasətini pisləmiş və Azərbaycana bu məsələdə birmənalı dəstək ifadə etməkdədirlər;

---

*Ətraflı məlumat üçün bax: 1) Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 2013-cü ilin yekunlarına dair mətbuat buraxılışı / http://www.mfa.gov.az/index.php?options=news&id=13&news_id=2118&language=az 2) Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 2014-cü ilin yekunlarına dair mətbuat buraxılışı / http://www.mfa.gov.az/news/909/3006

• Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasında İƏT-in öz gücündən istifadə edərək qətnamə qəbul etməsi və BMT kimi beynəlxalq təşkilatlarda Azərbaycana yüksək dəstək ifadə etməsi ikitərəfli münasibətlərdə əsas siyasi xətt olaraq qalır;

• "Xocalıya ədalət – Qarabağa azadlıq" İnternet kampaniyası çərçivəsində İƏT Azərbaycana dəstəyini davam etdirir və İƏT GF-nin mədəniyyət məsələləri üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın Xocalı soyqırımının tanınması ilə bağlı layihələrə rəhbərlik etməsi və təşkilat üzvlərinin də bu layihələrə maraq göstərməsi ikitərəfli münasibətlərin möhkəmlənməsinə müsbət təsir göstərmişdir;

• İƏT-in Azərbaycana yüksək dəstəyinə alternativ olaraq Azərbaycan Respublikası da beynəlxalq aləmdə islam həmrəyliyinin, islam sivilizasiyasının şöhrətlənməsinə öz töhfəsini davam etdirir. Bununla yanaşı, Azərbaycan tərəfi müstəqil Fələstin dövlətinin elan olunması yolunda İƏT-in yürütdüyü siyasətə dəstək verərək bu xoş məramını BMT tribunasından da bütün dünyaya bəyan etməkdədir.

• Son illər Azərbaycanda baş tutan yüksək səviyyəli tədbirlərdə, məsələn Bakı Humanitar Forumu kimi toplantılarda İƏT-in tanınmış simalarının iştirakı ikitərəfli münasibətlərdə yeni və uğurlu mərhələnin davam etdiyini göstərməkdədir;

• Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər il Ramazan bayramı ərəfəsində müsəlman ölkələrinin Bakıda fəaliyyət göstərən səfirlərini qəbul etməkdədir. Bu ölkələrin əksəriyyəti isə İƏT-in tamhüquqlu üzvləridir. Artıq ənənə halını almış görüşlərdə Azərbaycan Prezidenti müasir dövrdə islam həmrəyliyinin qorunması və müdafiə olunması sahəsində təşkilat üzvlərinin üzərinə məsuliyyət düşdüyünü qeyd edir və Azərbaycanın bu məsələdə yüksək mövqeyini bəyan edir. Bununla yanaşı, İlham Əliyev İslam dünyasının İƏT-də və BMT kimi nüfuzlu təşkilatlarda Azərbaycana göstərdiyi siyasi dəstəyini də xatırladaraq bunun əhəmiyyətini vurğulayır.

**ƏDƏBİYYAT**


1. Azərbaycan İslam Konfransı Təşkilatı sıralarında / elmi məsləhətçi A.Nadirov. Bakı: Apostrof, 2008, 319 s.
2. Beynəlxalq iqtisadi təşkilatlar / Kərimov C., Orucov A., Kərimova T. Bakı: Nurlan, 2008, 212 s.
3. Bababoğlu H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı: Aypara-3, 2009, 328 s.
4. Babaoğlu H. Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı: Çinar-Çap, 2010, 568 s.
5. Babaoğlu H. Azərbaycan Respublikasının xarici siyasətinin əsas prinsipləri və prioritetləri / http://www.xalqqazeti.com/az/news/politics/57005 (07.05.2015).
6. Bakıda İslam Əməkdaşlıq Təşkilatının Əmək, məşğulluq və sosial müdafiə ilə bağlı Çərçivə sənədinin icrası üzrə Rəhbər Komitəsinin ilk iclası keçirilir / http://www.mlspp.gov.az/az/pages/17/40/information/536 (17.06.2014).
7. Əl-Fəlah A.A. Heydər Əliyev və milli-mənəvi dəyərlər. Bakı: Qismət, 2007, 108 s.
8. Əhmədov A. İlham Əliyev və İslam Əməkdaşlıq Təşkilatı // "Dirçəliş XXI əsr" jurnalı, № 09-10(169-170), 2012, s. 202-211.
9. Həsənov Ə. Azərbaycanın geosiyasəti. Bakı: "Zərdabi LTD" MMC, 2015, 1056 s.
10. İbrahimov R. Azərbaycan xarici siyasətinin prioritetləri. Professor M.Qasımlı ilə müsahibə

/ http://www.bizimyol.info/news/26218.html (30/6/2014).
11. Muradova B. Yeni geosiyasi şəraitdə Azərbaycanın beynəlxalq münasibətləri: çoxşaxəli və tarazlı xarici siyasət / http://jurnal.meclis.gov.az/news.php?id=250 (01.12.2010).
12. Араслы Э. Полвека на Ближнем Востоке. Баку: Эльм и тахсил, 2012, 631 с.
13. Ахмедов А. Организация Исламского Сотрудничества в ближневосточной политике Азербайджанской Республики // «Гилея» науковый вестник, выпуск 84(№ 5), Киев, 2014, с. 518-522.
14. Ильхам Алиев / Андриянов В. Мираламов Г. Москва: Молодая Гвардия, 2007, 396 с.

## ОТНОШЕНИЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С ОРГАНИЗАЦИЕЙ ИСЛАМСКОГО СОТРУДНИЧЕСТВА (ОИС) НА НОВОМ ЭТАПЕ

**А.П.АХМЕДОВ**

### РЕЗЮМЕ

Азербайджанская Республика с 8 декабря 1991 года является полноправным членом ОИС. За прошедшие 25 лет отношение динамично развивались и Азербайджан стал одним из активных членов ОИС. Профессиональный политический деятельность национальной дипломатии сыграл позитивную роль роста внутреннего авторитета Азербайджана в ОИС. Наряду с этим в течение минувших лет демонстрация активности Азербайджана в современных международных отношениях, представления другими влиятельными международными организациями может быть успешным примером в исследуемой проблеме наряду с ОИС. В целом по восходящей, развивающей экономике Азербайджана, расширяющиеся энергетической политики и серьезное отношение к развитию нефтяного сектора имеет важное значение в укреплении отношений Азербайджана с ОИС.

В представленной статье были исследованы сотрудничества Азербайджанской Республики с ОИС за последние 13 лет. Прошедшие тринадцать лет запомнился как новый этап в развитии динамичных двусторонних отношений.

**Ключевые слова:** Исламская солидарность, международные организации, национальная дипломатия, Ближний Восток, энергетическая политика, двусторонние отношене

## A NEW PHASE IN THE RELATIONS OF THE REPUBLİC OF AZERBAIJAN WITH THE ORGANIZATION OF ISLAMIC COOPERATION (OIC)

**A.P.AHMADOV**

### SUMMARY

The Republic of Azerbaijan is a full member of the OIC since 8 December 1991. Relations have developed rapidly within the last 25 years and Azerbaijan has become one of the active members of the OIC. The professional political activity of the national diplomacy played a positive role in increasing the authority of Azerbaijan within OİC. In addition, the activity of Azerbaijan in modern international relations over the last years, the successful representation of Azerbaijan in other international organizations along with the OIC can be used as an example. Overall, the growing economy, expanding energy policy and a serious attitude to the development of non-oil sector are very important factors in strengthening of relations between Azerbaijan and OIC.

The presented article has investigated the last 13 years of cooperation between Azerbaijan and OIC. The last 13 years were noticed as a new phase in the dynamic development of bilateral relations.

**Key words:**Islamic solidarity, international organizations, national diplomacy, the Middle East, energy policy, bilateral relations